# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZIRLIYI

## ƏMR

**№ 75** **04.10.2019-cu il**

**"2019-2020-ci ilin payız-qış mövsümündə Respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə"**

2019-2020-ci ilin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü və 14.5-ci bəndlərini rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın, digər tibb müəssisələrinin rəhbərlərinə tövsiyə edilsin:

1.1. qrip və kəskin respirator virus infeksiyalarının profilaktikası məqsədilə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələr gücləndirilsin;

1.2. qripə şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması təmin edilsin;

1.3. zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiq edilməsi, tibb personalının fərdi mühafizə vasitələrindən (maskalardan) istifadə edilməsi təmin olunsun;

1.4. sanitariya-gigiyena və əksepidemik rejimlərin tələblərinin yerinə yetirilməsi üzrə tədbirlər gücləndirilsin;

1.5. ağır kəskin respirator xəstəlik halları barədə məlumat dərhal ərazi gigiyena və epidemiologiya mərkəzlərinə verilsin və şübhəli xəstələrdən götürülmüş nümunələr Respublika Taun Əleyhinə Stansiyasına çatdırılsın;

1.6. qrip və kəskin respirator virus xəstəliklərinin müalicəsi üçün dərman preparatlarının ehtiyatı yaradılsın;

1.7. əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası barədə kütləvi informasiya vasitələrindən geniş istifadə etməklə sanitariya-maarifi işi aparılsın.

2. Respublikanın şəhər və rayonlarının gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində, habelə tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə nəzarət gücləndirilsin;

3. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru H.Qədirovaya tapşırılsın ki, ağır formalı qrip xəstələrinin hospitalizasiyası üçün mənfi təzyiqli boksların tam hazır vəziyyətə gətirilməsi, dərman vasitələri, tibbi ləvazimat və inventarla təchiz edilməsi təmin edilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun vəzifəsini icra edən İ.Abdullayevə və Respublika Taun Əleyhinə Stansiyasının direktoru T.Vəliyevə tapşırılsın:

4.1. respublikanın şəhər və rayonlarında qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik və əksepidemik tədbirlərin aparılmasına metodik köməkliyin göstərilməsi təmin edilsin;

4.2. qrip və kəskin respirator infeksiyalar barədə və aparılmış laborator müayinələrin nəticələri barədə məlumatlar həftəlik əsasda Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzinin direktoru Z.Qəribova tapşırılsın ki, qrip və kəskin respirator infeksiyaların müalicəsi üçün lazım olan spesifik müalicəvi preparatların, dezinfeksiyaedici maddələrin, həmçinin ambulator-poliklinika müəssisələrinin və yoluxucu xəstəliklər xəstəxanalarının (şöbələrinin) personalı üçün fərdi mühafizə vasitələrinin alınması və yerlərə çatdırılması təmin edilsin.

6. Mətbuat katibi P.Abubəkirova tapşırılsın ki, qrip və kəskin respirator xəstəliklər barədə məlumatların mütəmadi olaraq Səhiyyə Nazirliyinin saytında yerləşdirilməsi təmin edilsin.

7. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**